# Şimali Makedoniya Respublikası Assambleyasının Sədri Fəxri xiyabanı və Zəfər parkını ziyarət edib






**Ölkəmizdə rəsmi səfərdə olan Şimali Makedoniya Respublikası Assambleyasının Sədri Afrim Qaşi iyunun 18-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub, tər çiçəklər düzüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində nümayəndə heyəti Bakıda Zəfər parkını ziyarət edərək abidə önünə əklil qoyub. Qonaqlara Azərbaycan xalqının Vətən müharibəsində qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə məlumat verilib.

***"Azərbaycan"***

Azərbaycan.- 2025.-19 iyun (№124).- S.5.